*Bir zaman gələcək, biz işğal altında olan Kəlbəcərə, Laçına, Zəngilana, Füzuliyə, Cəbrayıla Ağdama, Laçına, Qubadlıya və qeyrət rəmzimiz olan Şuşaya mütləq qayıdacağıq.*

Heydər ƏLİYEV
Ümummilli lider

*Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik.*

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti



# Tarixi Qələbəmizin növbəti təntənəsi – Böyük Qayıdış

***Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə 30 ilə yaxın isti ocaqlarının həsrətini çəkən məcburi köçkün soydaşlarımızın ata-baba yurdlarına qayıdışına yol açdı. Bu qayıdış tarixi Qələbəmizin növbəti təntənəsidir. Ermənistan üzərindəki şanlı Qələbəmizdən keçən iki ilə yaxın müddətdə sevincli, təntənəli günlərimiz bir-birini əvəz edir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, tikinti-bərpa işlərinin geniş vüsət alması, Şuşada, Suqovuşanda beynəlxalq əhəmiyyətli tədbirlərin, idman yarışlarının keçirilməsi, uzun illərdən sonra dağlarda, meşələrdə, qayalarda əks-səda yaradan "Xarıbülbül" festivalının yenidən keçirilməsi, sərgilərin, Vaqif Poeziya günlərinin bərpası, həmçinin digər qürur yaradan tədbirlər dünyaya bəyan etdi ki, "Qarabağ Azərbaycandır!". Növbəti təntənə isə Böyük Qayıdışın ilk müjdəsi oldu. Artq 30 il həsrətində olduğumuz həmin gün yetişdi. Bu müddət ərzində ata-baba yurdlarından uzaqda yaşayan Zəngilan rayonunun Ağalı kənd sakinləri indi sevinc göz yaşlarını axıda-axıda doğma ocaqlarına qayıdırlar.***

Budəfəki köç əvvəlki illərdəkindən tamamailə fərqlənir. 30 il əvvəlki köçün kökündə işğalçılıq, faşist xislətli Ermənistanın qonşu dövlətlərin torpaqlarını ələ keçirmək iddiası dayanmışdı. Bir də ki, 1988-1989-cu illərdə ömrünün son illərini yaşayan, necə deyərlər, suda batmamaq üçün saman çöpünə əl atan keçmiş SSRİ-nin başçısı Mixail Qorbaçovun səpdiyi milli ədavət toxumu cücərmişdi. Əlini müxtəlif millətlərin qanına batırmış M.Qorbaçov bu dəfə Azərbaycana diş qıcadı. Bu yolda ən yaxşı alət kimi, Ermənistanı Azərbaycan ərazisinə qısqırtmaq oldu. Erməni quldurları əvvəlcə xarici himayədarlarının köməyi ilə burada yaşayan azərbaycanlıları bir nəfər kimi dədə-baba yurdlarından vəhşicəsinə qovdular. Həmin il Azərbaycana böyük köç başlandı. Erməni vəhşiliyi nəticəsində minlərlə soydaşımız çətinliklə qurduğu yurd-yuvasından didərgin salındı və qaçqın kimi Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdı.

SSRİ-nin süqutundan sonra yaranmış hərc-mərclikdən və özbaşınalıqdan, o cümlədən respublikamızda yaranmış hakimiyyət böhranından istifadə edən işğalçı Ermənistan xarici himayədarlarının dəstəyi ilə bu dəfə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı işğal etdi. Öz Vətənimizdə məcburi köçkünə çevrildik. Erməni quldurları işğal edikləri ərazilərimizdə misli görünməmiş vəhşiliklər törətdilər və daş üstə daş qoymadılar. Kəndlər, qəsəbələr, rayonlar viran edildi. Qəbirstanlıqlar, tarixi-mədəni abidələr məhv edildi. Bəzi yaşayış məntəqələrimizin adını dəyişən ermənilər tarixi saxtalaşdırmağa cəhd edərək həmin ərazilərin, guya, onlara məxsus olması barədə rəy formalaşdırmağa çalışdılar. Lakin, bu arzuları puç oldu.

Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti bir milyondan artıq soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur etdi. Lakin belə çətin məqamda dövlətimiz öz vətəndaşlarına arxa-dayaq oldu. Həmvətənlərimiz qaçqın və məcburi köçkün həyatı yaşadıqları dövrdə daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində doğma yurdlarından didərgin salınmış soydaşlarımızın həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində bütün imkanlardan istifadə edildi. Qaçqın və məcburi köçkünlərin sosial problemləri ulu öndəri daim narahat edirdi. Heydər Əliyev dəfələrlə çadır şəhərciklərinə gedərək qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti ilə tanış olmuşdu. Onun bu şəhərciklərə hər gəlişi əsl bayram olardı.

Ümummilli liderin ölkəyə rəhbərliyi dövründə doğma yurdlarından didərgin salınmış soydaşlarımız beynəlxalq humanitar yardım alır, onların məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilirdi. Ulu öndər məcburi köçkünlərlə görüşlərinin birində demişdi: "Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini-yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".

Göründüyü kimi, dahi şəxsiyyət bu qəbildən olan insanların ağrılarını dərindən duyur, onların xilası yollarını axtarırdı. Heydər Əliyev işğal altında olan torpaqların azad edilməsi üçün bütün imkanlardan istifadə edirdi.

Məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün xeyli qanunlar qəbul edildi, dövlət proqramları təsdiq olundu.

Ulu öndərin daxili və xarici siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin strateji xəttinin ptioritetlərindən birini məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin, məşğulluğunun təmin olunması təşkil edirdi. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın etimadını qazanaraq ölkə Prezidenti seçilmiş cənab İlham Əliyev andiçmə mərasimindəki nitqində qətiyyətlə bildirdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Dövlət başçımız hələ prezident seçkiləri ərəfəsində keçirdiyi görüşlərdə demişdi ki, əgər ona etimad göstərib Prezident seçərlərsə, ilk növbədə, respublikamızdakı bütün çadır şəhərcikləri ləğv olunacaq, əvəzində, bütün inrastruktura malik qəsəbələr salınacaq. Elə də oldu. Qısa vaxt ərzində ölkə ərazisindəki bütün çadır şəhərcikləri ləğv edildi. Məcburi köçkünlər hər cür şəraiti olan mənzillərlə təmin olundu. Onların məşğulluğunun təmin olunması istiqamətində qətiyyətli addımlar atıldı. Beynəlxalq ekspertlər də etiraf edirlər ki, dünyanın heç bir ölkəsində məcburi köçkünlərə Azərbaycanda olduğu kimi şərait yaradılmayıb. Qaçqın və məcburi köçkünlərə göstərilən diqqət və qayğıdan söhbət düşəndə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti mütləq qeyd edilməlidir. Birinci xanım daim bu qəbildən olan insanlarla bağlı məsələlərə xüsusi həssaslıqla yanaşır, onların problemlərinin həllinə kömək göstərir.

Bu müddət ərzində Ermənistanın işğalçılıq siyasəti barədə beynəlxalq aləmdə mükəmməl informasiya bazası yaradıldı. Dövlət başçımızın düzgün müəyyənləşdirdiyi xarici siyasət sayəsində nüfuzlu beynəlxalq təşkilatlar, xüsusilə, BMT Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi ərazilərdən qoşunlarını qeyd-şərtsiz çıxarması barədə 4 qətnamə qəbul etdi. O cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı, Avropa İttifaqı, AŞPA, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən də Ermənistanın işğalçılıq siyasəti kəskin şəkildə qınandı, qoşunların həmin ərazilərindən çıxrılması barədə qətnamə və qərarlar qəbul edildi. Lakin dünyada baş alıb gedən islamofobiya və ikili standartlar, habelə dünya erməniliyi həmin qətnamə və qərarların icrasına problem yaratmış, əksinə, erməni quldurlarını, bütövlükdə, beynəlxalq aləm üçün təhlükə mənbəyi olan işğalçılıq siyasətini dəstəkləmiş, separatçıları xalqımızın üzərinə qısqırtmışdı. Bu da terror aktlarının və təxribatların nəticəsində günahsız insanların, o cümlədən hərbçilərin qətlə yetirilməsinə səbəb olmuş, yaşayış məntəqələrinin viran qoyulmasının sayını artırmışdır.





Prezident İlham Əliyevin münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında –sülh yolu ilə tənzimlənməsi istiqamətində apardığı siyasət dünyanın əksər dövlətləri tərəfindən dəstəklənsə də, Ermənistan və ermənipərəst qüvvələr buna məhəl qoymamış, əksinə, ölkəmizə qarşı təhdid və təzyiqlər daha da güclənmişdi. Ancaq dövlət başçımızın qətiyyəti və cəsarəti bütün təhdid və təzyiqlərin qarşısını aldı.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin sərhədboyu ərazilərimizdə başladığı genişmiqyaslı təxribat, əslində, ölkəmizə qarşı elan olunmamış müharibə idi. Buna qədər də işğalçı Ermənistan ordusu bir neçə dəfə təxribatlar törətmiş, lakin Azərbaycan Ordusunun güclü təzyiqi ilə qarşılaşmışdı. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ildəki Günnüt əməliyyatı və 2020-ci il Tovuz döyüşləri erməni quldurları üçün ciddi xəbərdarlıq olmalı idi. Lakin düşmən öz işğalçılıq siyasətini davam etdirdi və "böyük Ermənistan" dövləti yaratmaq iştahasından əl çəkmədi. Bu dəfə güclü, qüvvətli Azərbaycan Ordusu qarşısında cəmi 44 gün davam gətirə bildi. Müharibə başlanandan 3 gün sonra ərazilərimiz birbirinin ardınca düşməndən azad edildi.

Düşmən üzərindəki tarixi Qələbədən dərhal sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevə işğaldan azad edilmiş ərazilərə səfər etdilər və həmin gün bərpa-quruculuq işlərinin əsasını qoydular. Gündən-günə geniş miqyas alan yenidənqurma işləri bu gün də sürətlə davam etdirilir. Bu ərazidə görülən işlər artıq dünya ictimaiyyətinin diqqətini cəlb edib. Görülən işlər öz bəhrəsini verdi. Artıq Zəngilan rayonunun Ağalı kəndi ilk sakinləri qəbul edib.

İlkin köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin hər birinin sakinləri var. Kəndə köçürülən 41 ailədən hərəsinin bir üzvünə iş təklif olunub və təkliflər qəbul edilib. Təklifi qəbul etmiş şəxslər köçürülmədən sonra iş yerlərində rəsmi şəkildə qeydiyyata alınıb fəaliyyətə başlayacaqlar. Kənddə reallaşdırılan layihənin icrası – yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə ediləcək. Kənddə DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq. Ağalıda "DOST Aqropark" fəaliyyət göstərəcək.

Kənd sakinlərinin rahatlığı və təhlükəsizliyi üçün hər cür şərait yaradılıb. Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Qəsəbədə, eyni zamanda, "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və orta biznesin inkişafı mərkəzləri təsis olunub.

Beləliklə, sakinlərin dövlət xidmətlərinə rahat çıxışı gerçəkləşib, onların "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayıb. Onu da eyd edək ki, mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Dövlət başçımız işğaldan azad edilmiş ərazilərdə tikinti-bərpa işlərinin sürətləndirilməsini prioritet vəzifə kimi diqqət mərkəzində saxlayıb. Prezidentin 2022-ci il 21 iyul tarixli "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" fərmanı bu sahədə irəliyə doğru atılmış növbəti addımdır.

Bu xidmət Zəngilan rayonuna əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

...Ağalıya köç davam edir. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli binaların inşası da nəzərdə tutulur.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**